# AZERBAYCAN'DA MOLLA NESREDDİN LETİFELERİNİN NEŞRİ VE TETGİGİ TARİHİNDEN

Seyfeddin EYVAZOV*

Azerbaycan'da Molla Nesreddin adına isnad edilen letifeler, yahın ve orta şergde Nesreddin Hoca, yahud Hoca Nesreddin'in adı, ünvanı ile meşhurdur. Be'zi ölkelerde, o cümleden Azerbaycan'da Molla Nesreddin'i tarihi şahsiyyet hesap etmir, tekce Onun letfeleri ile kifayetlenirlerse, gardaş Türkiye'de bu iş biraz başga cürdür. Türkiye'de Nesreddin Hoca'nın adı ile bağlı letifelerin hem çapı, hem de tetgigi çoh derinliklere gedip çıhır.

Her bir ölkede, be'zen bir letife şeheri, yahud mezeli bir kehd olur. Azerbaycan'da Şeki/Nuha, Bolgaristan'da Gabrovo olduğu kimi, Türkiye'de de bele mekan, yegin ki, Akşehir'dir. Bu şehrerin taleyini ağardan baga bir sebeb de ar: Burada Türk tetgigatcılarının tesdik etdiyine göre Nesreddin Hoca'nın gebri, ziyaretgah olan türbesi vardır. Her ilin noyabr ayında Akşehir'de büyük bir yumor bayramı keçirilir. Doğum ve ölüm tarihleri de müeyyenleşdirilmiş bu yumor filosofu 605.ci hicri/1208.ci ilde Akşehir'de vefat etmişdir.

Azerbaycan ohucusunda Türk tetgigatcılarının Nesreddin Hoca haggında yürütdükleri fikirler, mülahizeler baresinde müeyyen genaet behş me'lumatlar vardır. O da me'lumdur ki, Övliya Çelebi, İbrahim Haggı Konyalı, Prof. Fuad Köprülü, Şükrü Kurgan, Sivrihisar müftüsü Hasan Efendi, İsmail Hami Danişmend, Bursalı Tahir ve b. Nesreddin Hoca'nı tarihi şehsiyyet hesab etmişler. Lakin ele Türkiye'nin özünde de Hoca'nın tarihi şehsiyyet çerçivesinden kenara çıhdığı ile rızalaşanlar var.

Hoca Nesreddin haggında fikir söyleyenlerin çohu Onun yahın ve orta şergin böyük letife ustası olduğunu geyd etmekle yanaşı, tarihi esaslandırmaların bir gisminde anahronizm olduğunu genaetine gelmişler. Azerbaycan'da Behlül Danende ve Molla Nesreddin letifeleri çoh geniş yayılmışdır. Bu bir hegigetdir ki, letifelerin ümumiyetle, şerg halgları içerisinde yayılması prosesi baş vermiş, fikir, dil ehlag, medeniyyet ve s. yahınlığı müşterekliye sebeb olmuşdur. Bir sıra letife kitablarının "Kelile ve Dimne" "Tabusnâme" ve s. ayrı ayrı tarihi şehsiyyet ve ediblerin de letifelerin yayılması ve inkişafına revac vermesi fikri ile rızalaşmag lazım gelir.

Azerbaycan millî metbuat tarihi çoh da uzağa getmediyinden 1906.cı ilden başlayarag "Debistan" ve "Mekteb" jurnallarında külli mikdarda letifeler çap edildiyini görürük. Letifelerin ayrıca kitab kimi çap edilmesi ve hemin dövre düşir. Eli Abbas Müznib Bakı'da Orucovlar Çaphanası'nda "Molla Nesreddin Mezhekesini" 1906.cı ilden başlayarag dalbadal bir il çap edir. Bu istigametde ilk tedgigat Henefi Zeynallı'ya mehsusdur. O, Eli Abbas Müznib'in topladığı "Molla Nesreddin Mezhekeleri"ne müdeddime ve tertib yazmagla 1927.ci ilde çap etdirir. Bu kitab evvelki eşrlerden öz tertebe prensipi, hecmi, yeniden işlenmesi ve didaktik mezmunu e'tibarile ferglenir. Bundan sonra hemin işi, sözün hekiki me'nasında daha yüksek seviyede, elmi prinsipler esasında meşhur

* Akat Y. Memmedeliyev Adına Nahcıvan Dövlet Üniversiteti Azerbaycan Dilciliyi Kefedrasının Müellimi

folklorşünas, filologya elmleri doktoru, Profesor Memmedhüseyn Tehmasib devam etdirir. Eger Memmedhüseyn Tehmasib'den fergli olarag, mühtelif müelliflerin 1956.ci ilden sonra / Y. Memmedov, G. Memmedli, B. Hüseynov, H. Gasımov / neşr etdirdikler letifeler, hemçinin Mollan Nesredin letifeleri ile rastlaşırıgsa, O, elmi ekspedisiyalar zamanı toplandığı ve arhiv metairalları esasında yeniden işleyerek tertib ittiyi, Azerbaycan Respublikası Elimler Akademiyasının Nizamı Adına Edebiyyat ve Dil İnstitünün / Hazırki Nizamı adına Edebiyyat İnstitünün / şifahi halg edebiyyatı şö'besi terefinden bir neçe defe burahılan "Molla Nesreddin Letifeleri" kitablarının esas tetgigatcısına çevrilir / Azerbaycan CCR EA Neşireyyatı, 1956, 1958, 1959, Yazıçı Neşriyyat, 1978, Moskva, 1962 / Eslinde letife janrı mövzusunda M.H. Tehmasib'in ilk kitabları 1939-1940.çı illerde çıhmışdır. Get-gede derc ettirdiyi kitabları tekmilleşdiren tetgigatçı 1956.çı ilde 400:e yahın Azerbaycan halg letifelerini özünde birleşdiren üçüncü ve daha mükemmel kitabını hazırlayıb ohucuların ihtiyarına vermişdir. Bu neşrde letifeler hırda başlıglar altında toplanmışdı. / "Göye niye Dırmaşırsan?" "Beş Yüz Pud Görer de", "Dalı Bundan da Pis gelecek" v.s./

M.H. Tehmasib tertib etdiyi, 1958.ci ilde Rus dilinde Azerbaycan SSR EA neşriyyatı terefinden burahılan "Anektadı Mollı Nasreddina" adlı kitaba mühüm tetgigat ehemmiyeti olan geniş mügeddime yazmış, be'zi letifelerin variantlarını, çetin sözlerin izahını vermişdir. Bu kitabda letifelerin mövzular üzre toplanması diggeti celb edir: "Molla ve dövlet adamları, Molla ve Gazılar, Molla ve Ticaret alemi, Molla evde, Molla dostlar arasında ve s. bu bölgü prensibi Moskva Dövlet bedii edebiyyatı neşriyatı terefinden 1962.ci ilde kütlevi tirajlar çap olunmuş "Anektodı Mollı Nasreddina" kitabında da sahlanmışdır.

Azerbaycan edebiyat şünaslığı Molla Nesreddin'i ve mühtelif halgların anlamındaki efendi, hoca/hace/Nesreddin Hoca, Bu adam, Aldar Koca ve s. letife gehramanlarını halg yaradıcılığının ümimileşdirilmiş komik obrazı kimi tedgig etmeşdir.Molla Nesreddin letifelerinin en son mükemmel neşrleri Bakı'da çap edilmiş "Molla Nesreddin Letifeleri" ve 1975.ci ilde Rus dilinde çıhmış "Anektadı Mollı Nasreddina" kitablarıdır. Tetgigi ve mügeddimesi Prof. Tehmasib'in olduğu birinci kitabda altı başlıg altında 303 letife toplanmıştır.

Azerbaycan Respublikası elmler Akademiyası Nizami Adına Edebiyyat İnstitunun baş elmi elçisi, filologiya elmleri namzedi Tehmasib Ferzeliyev'in 1971.ci ilde çap edilmiş "Azerbaycan Halg Letifeleri" ve M.S. Haritanaov'un 1978.ci ilde Maskva'da çap olunmuş "Mnogoliky Nasreddin" / V Knig "Dvadtsat iri Nasreddina"/, /Tekrar çapı 1992.ci ilde/mühüm edebiyyatşünaslıg menbeleridir. Buradaca bir mesele hagında danışmamag olmaz: Eger Ruslar 1830.cu ilden 1930.cu iledek Nesreddin mövzusunun tedgigi ile elagadar olarag yalnız Osmanlı Türk menbelerine müraciat edirdilerse, tahminen, hemin vahtdan sonra onlar Azerbaycan edebiyyatşünaslıgına da bila vasıta istinad edirler. Demeli, bu probleme yanaşma, menbelere müraciet etme ve mövzuya dair fikir söylemek üçün Azerbaycan edebiyyatşünaslığı da ümumi konteksde dahil olur.

Azerbaycan'da Molla Nesreddin hagında ilk fikir söyleyen Henefi Zeynallı bu genaete gelmişdir ki, Molla / Hoca / Nesreddin yahın şerg halglarının yaratdığı müşterek obrazdır.

Prof. M.H. Tehmasib ise Bühlül Danende ile Molla Nesreddin'i mügayise edir ve prototip meselesinde M.A. Sultanov'un fikrine esaslanır. Deyilenlerden bele netice cıharmag olur ki, Molla Nesreddin adı XIII. esr alimi ve mütefekkiri Hace Nesreddin Tusi ile bağlıdır. Bu fikri başga müellifler de mudafie etmişler.

Azerbaycan edebiyyatşünaslığı Molla Nesreddin adının sün'i süretde tarihi şehsiyetlerden biri ile bağlanılmasının eleyhine olmuşdur. Bu, folklorşunaslığın nezeri prensiplerine zıdd hesab edilmişdir. Hemin letifeler halg dühasının mahsulu hesab edilmişdir. Bugün Molla Nesreddin Azerbaycan'da müdrik bir folklor gehramanı kimi yaşayır. Halg öz ibretamiz fikirlerini onun adı ile letifeleşdirmişdir. Eger tam elmi fikir yürütmekden söhbet açılırsa, zennimizce, letifelerdeki anahponizm ortadan galdırılmagla mükemmel çaplara nail olunmalıdır.

Molla, yahud Hoca Nesreddin mövzusu halglarımızın ruhi-me'nevi, dil, bediî gehreman birliyinin remzine çevrilmişdir. Yaşasın beyle birlik, deyirik.

**İSTİFADE EDİLMİŞ EDEBİYAT:**


1. **Azerbaycan-Sovet Ensiklopediyası,** III. Cild, s.37, Bak, Molla Nesreddin.
2. Tehmasib Ferzeliyev - **Azerbaycan Halg Letifeleri,** "Elm" Neşriyyatı, Bakı, 1971, cı il,
3. M.H. Tehmasib- "Mekteb" Jurnalında Folklora Münasibet Meselesi, "Azerbaycan Şifahi Halg Edebiyyatına Dair Tedgigler", Y Cild/Kitab/"Elm" Neşriyyatı, Bakı 1977.ci il.s.3-27.
4. Eziz Mirehmedov-Celil Mehmedguluzade Yaradılıcığında Molla Nesreddin Suretinin Tekamülü, yene orada, s.28.46.
5. Memmed Aslan-"Erzurumun Keliyine Varanda..."/**Seyehat Çizgileri, Yol Düşünceleri,** Işıg Neşriyyatı, Bakı 1985.ci iil
6. **Molla Nasreddin Letifeleri,** "Yazıçı" Neşriyyatı-Bakı 1978.ci il
7. Fagıf Belliyev - **Azerbaycan Şifahi Halg Edebiyyatı,** Bakı 1970.ci il. s.327-335.


## BİZE GELEN KİTAPLAR

Yrd. Doç. Dr. Erman ARTUN **"Günümüzde Adana Âşıklık Geleneği (1966-1996) ve Âşık Feymani"**, Adana 1996 (Adana Valiliği İl Kültür Müdürlüğü Yayınları: 3) • Yrd. Doç. Dr. Himmet BİRAY - Yrd. Doç. Dr. Mehmet SARI, **"İbrâhim Bin Edhem Kıssası"**, Afyon 1995 (Medrese Kitabevi) • Türkiş Cumageldi - (Türkiye Türkçesi: Dr. Ali Duymaz), **"Kara Yıldırım"**, İstanbul 1996 (Ötüken Yayınevi) • Yrd. Doç. Dr. Ali Duymaz **"Nevroz Bey Hikâyesi İnceleme-Metinler"**, Aydın 1996 (Millî Folklor Yayınları: 5, Halk Edebiyatı: 2) • **"İdegey-Tatar Halık Destanı"**, Kazan 1994, (Tataristan Kitap Neşriyatı) • Gayaz İshakıy, **"Zindan"**, Kazan 1991 (Tataristan Kitap Neşriyatı) • M. Sabri KOZ (Yayına Hazırlayan), **"Nasreddin Hoca'ya Armağan"**, İstanbul 1996 (Oğlak Yayınları) • **"Nasreddin Hoca'nın Dünyası"**, (Türkiye İş Bankası Kültür Yayınları Unesco 1996 Nasreddin Hoca Yılı) • Temirpulat Tillaev, **"Üzbek Allaları"**, Taşkent 1994 (Nasaf Neşriyatı) • Töre Nafasov, **"Üzbek Nomnoması"**, Karşı 1993 (Nasaf Neşriyatı) • Töre Nafasov, **"Üzbekistan Toponimlarının İzahlı Lugati"**, Taşken 1988 • Doç. Dr. Elfine SİBGATULLİNA, **"Törekçe Söyleşebiz"**, Kazan 1995 (Tataristan Kitap Neşriyatı) • **"Gabdulla Tukay-Saylanma Eserler"**, Kazan 1996 (Tataristan Kitap Neşriyatı) • Durali DOĞAN, **"Yozgatlı Âşık Sıtkı Baba"**, Yozgat 1996 • Nevin AKKAYA, **"Gelenek, İnanç ve Toplum"**, Balıkesir 1995 (Alem Basım-Yayım Yayını), Bahriye ÇERİ, **"Türk Romanında Kadın 1923-38 Dönemi"**, İstanbul 1996 (Simurg Yayını) • Emine CEYLAN, **"Çuvaş Atasözleri ve Deyimleri, Çuvaşça-Türkçe/Çuvaşça Sözlük"**, Ankara 1996 (Simurg Yayınları, Türk Dilleri Araştırmaları Dizisi) • Ülkü ÇELİK, **"Ali Şir Nevayî Leylî vü Mecnun"**, Ankara 1996 (Türk Dil Kurumu yayını) • Prof. Dr. Maarife HACIYEVA - Şahin KÖKTÜRK - **"Gizli Çiçek-Sanat ve Edebiyat Yazıları"**, Samsun 1996 • Mehmet GÖKÇE, **"Horzum Oymağından Gökçeler Tarihleri - Gelenekleri - Görenekleri"**, Denizli 1996 • Yrd. Doç. Dr. Doğan KAYA, **"Âşık Sefil Selimî-Çobanın Can Pınarı"**, Sivas 1996 • Yrd. Doç. Dr. Doğan KAYA, **"Âşık Zakirî"** Sivas 1996 • Prof. Dr. Fikret TÜRKMEN (Yayına Hazırlayan), Julius KROHN-Kaarle KROHN (Yazarlar) - Gansel İÇÖZ (Çeviren), **"Halk Bilimi Yöntemi"** Ankara 1996 (Türk Dil Kurumu Yayınları: 651) • Ümit TOKATLI, **"Pîr Mehmed b. Evrenosb. Nûreddin Zâ'ifî-Kitab-ı Bostan-ı Naşayıh"**, Kayseri 1996 (Erciyes Üniversitesi Yayınları: 91).